**Eldar İSMAYIL**

## DURUR

*Görkəmli alim, böyük insan*
*Abuzər Xələfovun yubileyi münasibətilə*

Bu elə dünyadı, bu elə gərdiş,
Orda haqdan deyən ozanlar durur.
Qorqudun qopuzu oğuzla dinər,
Min ildi Beyrəklər, Qazanlar durur.

Ataş var bir səbrin sərinliyində,
Həyat var həyatın dərinliyində.
Nurlu əməllərin şirinliyində
Pozulmaz qurğular, mizanlar durur.

Sabaha inam var alim səsində,
Min-min hikmət yatır söz xəznəsində.
Tarixin ölməzlik cəzirəsində
Böyük tarixləri yazanlar durur.

Aqillər sayıqdı hikmət başında,
Nadanlar mənasız söz savaşında...
Əbədi dünyanın qan yaddaşında
Alimlər, adillər, uzmanlar durur.

Həyat axarında, əzəlliyində,
İgidlər, müdriklər, öz ərliyində...
Bu gözəl dünyanın gözəlliyində
Abuzər Xələftək azmanlar durur.